# Dost və strateji tərəfdaşlar: Azərbaycan-İtaliya




***Azərbaycan-İtaliya münasibətləri strateji xarakter daşıyır və iki ölkə arasında əlaqələr tarixi köklərə, etibarlı tərəfdaşlığa və dostluğa söykənir, əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də humanitar sahədə dinamik inkişaf edir. İtaliya həm də Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsində əsas geosiyasi aktordur.***

Ölkələrimizin əlaqələri hər zaman yüksək səviyyəsi, çoxşaxəliliyi və nümunəvi dinamikası ilə seçilib. Avropa İttifaqının üzvü olan İtaliya Azərbaycanın əsas siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya ikitərəfli müstəvidə respublikamızın strateji tərəfdaşı olmaqla yanaşı, çoxtərəfli müstəvidə də Azərbaycanın sıx əməkdaşlıq etdiyi vacib ölkədir. Son zamanlar Azərbaycan və İtaliya arasında münasibətlərin artan xətt üzrə inkişaf etdiyi müşahidə olunmaqdadır. Avropa İttifaqının önəmli dövlətlərindən olan İtaliya ilə əlaqələrin iqtisadi inkişafı təbii ki, siyasi dialoqun, dövlət başçılarının qarşılıqlı səfərlərinin uğurlu nəticəsidir. 2020-ci il fevralın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri ölkələr arasında əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyir. Səfər zamanı Romada "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" imzalanıb. Bu sənədə əsasən, ölkələr arasında münasibət, çoxsaylı biznes anlaşmaları nəinki neft-qaz sektorunda, eləcə də iqtisadiyyatın başqa sahələri üzrə əməkdaşlığın genişləndirilməsinə təkan verir. Birgə Bəyannamə həm də iki ölkə arasındakı münasibətlərin əhəmiyyətini ortaya qoyur. Ötən dövr ərzində siyasi, iqtisadi, humanitar, mədəni, enerji, nəqliyyat, elm və təhsil, turizm sahəsində əməkdaşlıq daha da inkişaf etdirilib. Bundan başqa, 2020-ci il İtaliyada "Azərbaycan İli" elan olundu. İki ölkə arasında münasibətlərdə ən vacib məsələlərdən biri də Bakıda Azərbaycan-İtaliya Universitetinin yaradılmasıdır. Bu gün Azərbaycan ilə İtaliya arasında bu istiqamətdə də fəaliyyətlər davam edir.

Qeyd edək ki, çoxölçülü tərəfdaşlıq gələcəyə yönəlmiş, qlobal və regional proseslərə, problemlərə ümumi baxış, habelə tərəflərin mövcud maraq və nüfuz dairəsinə düşən bölgələrdə sülh, sabitlik və rifahı inkişaf etdirmək üçün ortaq bir hədəfə istiqamətlənən əməkdaşlıqdır. Bu baxımdan Azərbaycan və İtaliya arasında imzalanan sənəd qarşılıqlı maraqların, qlobal və regional təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın, əlaqələrin inkişafı baxımından çox əhəmiyyətli sayılır. Vətən müharibəsi dövründə İtaliya Azərbaycanla həmrəylik nümayiş etdirdi. 44 günlük müharibə zamanı, həm də ondan sonrakı dövrdə rəsmi Roma bir neçə dəfə Azərbaycandakı səfirlik vasitəsilə ölkəmizə dəstək bəyanatları verdi. Azərbaycan bu günlər ərzində kimin xeyirin, ədalətin, kimin isə şərin yanında olduğunu görmüş oldu. İtaliya mediası Azərbaycanla bağlı məsələlərdə obyektivliyini qorudu. Bunun da nəticəsidir ki, işğaldan azad edilən rayonlarda xarici şirkətlərdən ilk olaraq Türkiyə və İtaliya şirkətləri yer alıb.

## İki ölkə arasında siyasi, iqtisadi, həm də humanitar sahədə əməkdaşlıq dinamik inkişaf edir

Ötən il sentyabrın 1-2-də Prezident İlham Əliyev İtaliyaya işgüzar səfər etdi. Burada bir çox məsələlər ətrafında müzakirələr aparıldı və müəyyən addımlar atıldı. İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə reallaşdırılan Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri eyni zamanda Azərbaycanla İtaliya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi çərçivəsində həyata keçirilib, sayca yeddinci səfər olub. Səfər çərçivəsində İtaliya-Azərbaycan Universitetinin açılması ilə əlaqədar sənədin təqdim edilməsi, İtaliyada Azərbaycan səfirliyinin yeni binasının istifadəyə verilməsi ilə bağlı məsələlər öz əksini tapıb. Bir sözlə, Prezident İlham Əliyevin İtaliya səfəri iki ölkə münasibətlərini yeni müstəviyə qaldırıb. Səfər çərçivəsində keçirilmiş görüşlər, Prezident İlham Əliyevin Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi beynəlxalq forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlər və yerli KİV-lərə açıqlamaları ilə bağlı İtaliya mətbuatında çoxsaylı məqalə, məlumat və videoreportaj yayımlanıb.

Prezident İlham Əliyevlə görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən İtaliya Prezidenti Sergio Mattarella Azərbaycanın bölgədə, regionda və ümumiyyətlə dünyada gedən proseslərdə önəmli rolunu qeyd etdi. İtaliya Prezidenti "Milan Expo 2015" sərgisində iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İtaliya dövlətinin başçısı Heydər Əliyev Fondunun ikitərəfli münasibətlərimizin, mədəni sahədə əlaqələrin inkişafında mühüm rolunu vurğuladı. Milan sərgisində Azərbaycan pavilyonunun yüksək səviyyədə təşkil olunduğunu xüsusi qeyd etdi. Azərbaycanın beynəlxalq münasibətlər sistemində, antiterror fəaliyyətində, ekstremizmə və radikalizmə qarşı beynəlxalq səviyyədə mübarizədə rolunu yüksək qiymətləndirdi. Ölkələrimiz arasında güclü dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdıraraq dedi ki, bu, xalqlarımızı daha da yaxınlaşdırır. O, Azərbaycanın yalnız regionda deyil, ümumiyyətlə beynəlxalq dialoqun həyata keçirilməsi işində rolunu yüksək qiymətləndirdi.

"İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesi sürətlə gedir, 5 İtaliya universiteti bizimlə artıq tərəfdaşdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 13-də 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edən İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib. Ölkə başçısı qeyd edib ki, güclü siyasi əlaqələrimiz çox böyük təməldir. Neft-qaz və hazırda elektroenergetika layihələri bu təməli böyük dərəcədə gücləndirdi. Eyni zamanda, biz istəyirik ki, ticarət əlaqələri daha da şaxəli olsun. Bilirsiniz ki, İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesi sürətlə gedir, 5 İtaliya universiteti bizimlə artıq tərəfdaşdır. Eyni zamanda, azad olunmuş torpaqlarda ən çox iş görən şirkətlər Türkiyəni və İtaliyanı təmsil edirlər.

Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində ölkəmizin təsdiq edilmiş təbii qaz ehtiyatlarının həcminin 2,6 trilyon kubmetr təşkil etdiyini, Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılmasının nəzərdə tutulduğunu, İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələrin imzalandığını, qıtənin digər ölkələrinə qaz nəqlinin qiymətləndirildiyini bildirib. Prezident İlham Əliyev İtaliyanın karbohidrogen resurslarını Avropanın digər yerlərinə ötürəcək ölkə olacağına əminliyini ifadə edib. İtaliya şirkətlərinin işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev bunun iki ölkənin münasibətlərinin yaxın olduğunu təsdiq etdiyini bildirib. Azərbaycanda bərpaolunan enerji - külək, günəş və su elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planların olduğunu vurğulayıb: "İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir".

Cənab Prezident onu da qeyd edib ki, Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub.

İkitərəfli münasibətlərdə xüsusilə enerji seqmenti əhəmiyyətli rola malikdir. Müasir dünyada geosiyasi konyunktura, baş verən proseslər, enerji tədarükündə müşahidə olunan qırılmalar bu sahəni daha da prioritet bir müstəviyə qaldırıb. Bu xüsusda Azərbaycana maraq böyükdür. Hazırkı şəraitdə enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas elementlərindən hesab olunur. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyində öz fəal rolu ilə seçilir. Rəsmi Bakıya qaz tədarükünün artırılması ilə bağlı çoxsaylı müraciətlər daxil olur. Bu baxımdan Azərbaycan və Aİ arasında enerji təminatı sahəsində strateji sazişin imzalanması da bunu deməyə əsas verir.

**Mustafa KAMAL,**
**"Respublika".**